# Şuşa "Türk dünyasının mədəniyyət paytaxtı" estafetini qəbul edən 11-ci şəhərdir




**Bu günlərdə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun təşəbbüsü və təşkilatçılığı, Bursa Böyükşəhər Bələdiyyəsinin dəstəyi ilə şəhərdə Şuşa Günləri keçirilib. Silsilə tədbirlər 2022-ci ildə "Türk dünyasının mədəniyyət paytaxtı" olan Bursa şəhərinin bu missiyanı Azərbaycanın Şuşa şəhərinə təhvil verməsi münasibətilə təşkil olunub.**

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva qeyd edib ki, 2022-ci ildə "Türk dünyasının mədəniyyət paytaxtı" statusunu layiqincə daşıyan Bursadan sonra 2023-cü ildə bu estafeti Azərbaycan mədəniyyətinin beşiyi Şuşa davam etdirəcək. Bununla bağlı Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Bursada Şuşa Günlərinin keçirilməsi təşəbbüsünü irəli sürmüş və bu təklif dəstəklənərək, Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə qəbul olunan Bəyannamədə öz əksini tapmışdı. Bu həm də yeni və gözəl bir ənənənin başlanğıcı sayıla bilər.

Silsilə tədbirlərin ilk günü "Şuşanın tək incisi" bədii-sənədli filminin təqdimatı olub. Bu il 190 illiyi qeyd olunan Azərbaycanın görkəmli şairi Xurşidbanu Natəvanın həyat və yaradıcılığına həsr olunmuş filmin çəkilişləri Xan qızının ocağında - Şuşada ermənilər tərəfindən viran qoyulan evində aparılıb.

Şuşa Günləri çərçivəsində Bursada "Şuşada ürəyim qaldı" tamaşası nümayiş etdirilib. Tamaşa Xalq yazıçıları İlyas Əfəndiyevin "Qarabağnamə" pyesi və Elçinin "Baş" romanı əsasında hazırlanıb.

Qeyd edək ki, türk dövlətləri başçılarının 2010-cu ildə İstanbulda keçirilən Zirvə toplantısında təsdiqlənən TÜRKSOY-un "Türk dünyasının mədəniyyət paytaxtı" layihəsinə əsasən, 2012-ci ildən etibarən bu missiyanı hər il təşkilata üzv ölkələrdən birinin şəhəri qəbul edir.

İlk olaraq "Türk dünyasının mədəniyyət paytaxtı" adını Qazaxıstanın Astana, ardınca 2013-cü ildə Əskişəhər (Türkiyə), 2014-cü ildə Kazan (Tatarıstan), 2015-ci ildə Mərv (Türkmənistan), 2016-cı ildə Şəki (Azərbaycan), 2017-ci ildə Türküstan (Qazaxıstan), 2018-ci ildə isə Kastamonu (Türkiyə) daşıyıb. 2019-cu ildə bu missiyanı Oş (Qırğızıstan), 2020-ci ildə isə Xivə (Özbəkistan) qəbul edib. Xivə şəhərində 2020-ci ilin "Türk dünyasının mədəniyyət paytaxtı" mərasimləri pandemiya səbəbindən ertələnərək 2021-ci ildə keçirilmiş, sonra estafet Bursa şəhərinə verilmişdi.

Beləliklə, Şuşa "Türk dünyasının mədəniyyət paytaxtı" missiyasını qəbul edən 11-ci şəhərdir.

Azərbaycan.- 2022.- 18 dekabr.- S.10.